# Əbədiyyətə qovuşanlar: Şəhid Teymur Rəsulov



**Teymur Yavus oğlu Rəsulov 1988-ci ilin mart ayının 23-də Qaradağ rayonunun Sahil qəsəbəsində anadan olmuşdur.**

Azərbaycan Ordusunun əsgəri olan Teymur Rəsulov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə igidlik göstərmiş, 2020-ci ilin oktyabrın 21-də Cəbrayıl döyüşləri zamanı 32 yaşında şəhid olmuş və Lökbatan şəhidlər xiyabanında dəfn olmuşdur. Subay idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən, Teymur Rəsulov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

**Allah rəhmət eləsin!**

**Azad Azərbaycan.- 2022- ci il.- 31 mart.- S. 5.**